# “Ədəbiyyat” sözünün mahiyyətini dəyişməliyik

## *Qan Turalı:* “Ədəbiyyat danışmaqdan çox, susmaqdır”




**- Bu günlərdə “Ayna” adlı kitabınız çap edildi...**

- Lap əvvəl, ildə bir kitab çap etdirmək fikrim vardı. Lakin zamanla bu istək də yox olub getdi. Bəli, yazmaq mənim üçün daima ən əyləncəli iş olaraq qalır. Mən yazmağı sevirəm. İnsanlar da oxumağı sevirlərsə, çox gözəl... İndi isə az yazıram. Və buna da normal baxıram. Yazmaq mənim üçün daxili bir tələbatdır. “Ayna”ya gəldikdə isə bu hekayələri küll halda görmək istəyirdim. Mənə elə gəlir ki, bu kitab alınıb.

**- Belə bir sual vermək istəyirəm: “Prokuror” povestində Prokurorun adı nədir?**

- Bunu bir oyun kimi nəzərdə tutmamışam. Düşünməmişəm ki, insanlar mənə bu sualı mütləq verməlidir və buna görə adı gizli saxlayım. Sadəcə olaraq, ilk sətirləri yazdığım andan etibarən bu ad elə Prokuror olaraq qaldı. Heç zaman bu adı dəyişməyi düşünmədim. Və düşünməyəcəyəm də...

**- Kitabdakı “Casusların xəfiyyəsi” povesti artıq ikinci Prokuror hekayəsidir. Üçüncüsünü də yazacaqsınız?**

- Məncə, yazacağam. Bu dəfə beynimdə orta əsrlərlə bağlı bir əhvalat var. Dəqiq bilmirəm ki, nə əhvalatdır, amma bu haqda yazılacaq.

**- Kitabdakı hekayələr real hadisələrə əsasən yazılıb?**

- Hə, gəlib çıxdıq bu suala... Orxan Pamuka bir müsahibədə sual verirlər: “Orxan bəy, bunları gerçəkdən yaşadınızmı?” İcazə versəydiniz bu suala bir az geniş cavab verərdim.

**- Buyurun...**

- Məncə, “ədəbiyyat” sözünün adını dəyişmək lazımdır. Söhbət heç də “ədəb” sözündən getmir. Ədəbiyyatın ədəb olması məsələsi yüz ildir ki, həll olunub. Oskar Uayld deyirdi ki, əxlaqlı, ya da əxlaqsız əsər yoxdur, yaxşı, ya da pis əsər var. Biz ədəbiyyat sözünün mahiyyətini dəyişməliyik. Bilmirəm, əvəzinə nə qoyaq. Bəlkə, adı eləcə qalsın, amma tərifini dəyişək. Başqa cür izah edək...

**- Necə?**

- Çox sadə... Bir qisim yazıçılar var, hardansa eşitdikləri əhvalatları götürüb yazırlar və bu, əsər olur. “Bu, pisdir” demirəm, sırf bu cür yazılan əsərlər arasında xeyli yaxşıları da var. Bu, qədim məsələdir. Bir adam nağıl danışırdı, oturub qulaq asırdılar. Yəni hekayəçilik. Baş vermiş bir hadisəni götürüb yazmaq.... Sən deyə bilərsən ki, hər şeyi baş verdiyi kimi qələmə almaq imkansızdır. Yazıçı nəyisə dəyişir, başqa bir yerdə gördüyü insanı bu hekayənin içinə salır, nəyisə montaj edir. Bəli, amma yenə də mahiyyət dəyişmir ki... Yazıçı yenə də ətraf aləmin təsirindədir. Bu məntiqlə gərək müharibə görməmiş adam müharibə haqda yazmaya... Jül Vern ömrü boyu səyahətə çıxmamışdı, amma macəra ədəbiyyatının klassikidir. Ədəbiyyata yanaşmamız dəyişməlidir. Məsələ bundadır.

**- Yəni gördüklərimizi yazmayaq?**

- Bir müqayisə aparaq. Maraqlı əhvalatlar danışan adamlar var. Bir məsəl də var, deyir, çox söz yalansız olmaz. Əlbəttə ki, bu adamlar əhvalat danışanda xalq dili ilə desək, nəyisə bəzəyirlər, nəyisə qoşub düzəldirlər. Lakin çıxış nöqtəsi daima eyni olur: Həyat! Hərçənd bu, belə deyil. Ədəbiyyat beyin fəaliyyətidir. Yaxşı bir əhvalat, hətta lap yaxşı yazılsa belə, müasir düşüncə sistemində hələ ədəbiyyat deyil.




**- O ki qaldı suala...**

- Bəli, yazdıqlarımın heç biri real deyil... Heç biri... Sizi əmin edirəm. Filmlərdə fikir veribsən, bəzən yazırlar ki, gerçək hadisələr əsasında çəkilib.

**- Bəs bunu niyə edirlər?**

- Müqayisə aparaq. Bir rəssam quş şəkli çəkir. Altına isə yazır: Bu rəsm əsl quşlara baxılaraq çəkilib. Absurd deyil?

**- Absurddur...**

- Bax, ədəbiyyat da o cürdür. Elə rəsmdən söz düşmüşkən, Pikassodan soruşanda ki, sizin çəkdiyiniz balıq balığa oxşamır, bilirsinizmi nə deyir? Bu balıq deyil, bu, balığın şəklidir.

**- Bəs filmlərdə niyə yazırlar elə?**

- Bu tamaşaçını ələ almaq üçündür. Film əmtəədir, onu daha çox satmaq üçündür. İnsanlar real hekayələrə daha çox inanırlar. Amma ədəbiyyat insanları aldatmağı bacarmalıdır. Aldatmırmı, sanki? Aldadır da...

**- Bəs kimdir elə o hekayə danışanlar?**

- Çoxları... Bu gün az qala hamı əhvalat danışır, bu əhvalatları yazır. Ədəbiyyat danışmaqdan çox, susmaqdır. Deməkdən çox, deməməkdir. Sus, görüm kimsən... Nələr gizlənib sükutunda...

Bax, bir şey də deyim. Sənədli nəsr anlayışı var. Bu başqadır. Orda faktlara xəyanət edə bilməzsən. Ədəbiyyat isə beyində qurulur və yazılır. O, nə qədər gerçəkdən uzaq olsa, o qədər yaxşıdır... Danışmaq ictimai, susmaq isə fərdi hadisədir.

**- Gerçəkdən uzaqlaşmaq mümkündür ki?**

- Əsla. Çünki bizim beynimiz son nəticədə ətraf aləmin təsiri ilə formalaşır. O bilikləri, hissi və idrakı toplayırıq. Lakin yenə də şorba beyində bişməlidir. Hansısa bir dağ kəndində yox. Biz bunu səhv salırıq.

**- Amma “Ayna”dakı bütün qəhrəmanlar melanxolikdir. Onlar sanki yaşamaqdan beziblər...**

- İcazə ver, Hessenin sözləri ilə cavab verim. “Yalquzaq” romanının depressiv olduğunu deyənlərə, o, belə cavab verirdi: “Oxucularımın əksəriyyəti “Yalquzaq”ın insanı gəmirən böhrandan və ruh düşkünlüyündən danışdığını deyirlər. Lakin romanın insanları ölümə, yoxluğa yox, xoşbəxtliyə, səadətə aparacaqlarını başa düşmələrini istərdim”. Bəli, haqlısınız, ordakı obrazlar melanxolikdirlər...

**- Çoxlu intiharlar da var...**

- Bəli, mən də zamanın ruhunun təsirindəyəm. Gerçəkliyin özünün yox, onun ideyalarının təsirindəyəm. Bəli, bu gün biz bu gerçəklik içində yaşayırıq, lakin onun ruhudur bunları yaradan...

**- Kitabda üç intihar var...**

- Üçdürmü? Aha, üçdür...

**- Oxucular kitabda “Ayna” adlı əsər olmadığına təəccüb edirlər...**

- Düzü, hekayələr kitabına ad qoymağın çətin tərəfi var. Burda hekayə çoxdur və hamısını təyin edən ad tapmaq çətin məsələdir. Bundan əvvəlki kitabı sadə şəkildə “Doqquz hekayə” adlandırmışdım. “Ayna”da da doqquz hekayə var, amma mən “Samir, Samiri...” povestinin əsərdə iştirak etməyən obrazı olan Aynanın adını seçdim.

**- Və Ayna da intihar edib...**

- Təəssüf... Ayna daim yaşayacaq, Samir isə dirigözlü meyitdir. Ayna olmaq gözəldir...

**- “Həyatı köçürtməyin cansıxıcı detalları” hekayəsində qəhrəmanlar niyə intiharı seçir?**

- Yaman çox intihardan danışdıq.

**- Sizin yazdıqlarınızdır...**

- Səmimi deyəcəyəm, mən bunu bilmirəm. Bəlkə də fərqli bir şey düşündüm, düşündüm ki, insanlar birgə intihar edə də bilərlər. Axı insanlar birgə yaşamağı seçirlər. Bəlkə, intiharı seçmək daha özəldir... Başqa final tapa bilmədim. Etiraf edirəm...

**- O hekayənin qəhrəmanı sizsiniz....**

- Gördüyünüz kimi, mən sağam... (gülür)

**- Universitetdə çalışırsınız, daim gənclərin arasındasınız. Bu sizə necə təsir edir?**

- Çox yaxşı... Bilirsən, Rəvan, biz oxucudan uzaq düşmüşük. Bizim çox yaxşı yazıçılarımız olub və var. Lakin biz oxucunu itiririk. Bu, bir az da qlobal prosesdir. Gələcəyin sənəti kino olacaq. Buna əminəm. Gənclər isə heç əvvəlki kimi deyil. Bəli, hər dövrün gəncliyi fərqlidir. Lakin bizim dövrümüz dəhşətli dəyişikliklərin astanasındadır. 1000-ci illə 1500-cü il arasında nə fərq olub ki? Bəlkə, arabanın təkərin bir az da yastıladıblar... İndi necədir? İnternet əsridir, sürət əsridir, sosial media əsridir. Bu böyük dəyişikliklər yaşlı adamlara da təsir edir. Gənclərin isə beyni belə çalışmır. Bu gün bizim ədəbi mühiti düşündürən mövzular onları maraqlandırmır. Həqiqət isə daim gənclərin tərəfindədir.

**- Siz gənclər haqqında sanki başqa bir sosial qrupdan danışırmış kimi danışırsınız...**

- Özümü gənc hesab etmirəm (gülür).

**- Və sizə qulaq asanda adama elə gəlir ki, sanki Azərbaycan yazıçısı deyilsiniz. Bu müsahibə də, sanki, tərcümədir...**

- Biz milliliyi də bəzən bəsit anlayırıq. Millilik dərin qatlardadır. Biz Səməd Vurğun boyda şairi folklorla şikəst edirik. Baxıram, hamı Səməd Vurğunda folklor axtarır. Səməd Vurğuna folklor təsir etmişdi, amma ki, folklor lap Herman Hesseyə də təsir edib. Səməd Vurğun böyük bir zamanın övladı idi, Vaqifin bulağından su içdiyi qədər Mayakovskidən də su içmişdi. Bilirsən, niyə belə olur?

**- Niyə?**

- Çox zaman bəsitləşdiririk ki, anlayaq... Bəsitləşdiririk ki, başa düşək. Özümüz onun səviyyəsinə qalxa bilmirik. Onu vurub yerə salırıq. Sadəcə, budur bütün məsələ... Biz zəka ilə izah etməyə meylli deyilik. Hər şeyi irrasional şeylərlə izah edirik: İstedad, fəhm... Çünki hələ ənənəvi cəmiyyətdə yaşayırıq. Halbuki ədəbiyyat həm də texniki bir məsələdir...

**- Necə yəni texniki? Axı...**

- Bir roman öz qurğusu, strukturu və hətta dili ilə texniki bir məzmundur. Romanı bir mühəndis kimi qurmaq lazımdır. Necə ki, rejissor bir filmi çəkərkən hansı səhnədə aktyorun hansı emosional mətni deyəcəyini, eləcə də filmin hansı mənəvi problemləri qaldırdığını anlayırsa və bununla belə, səhnədə hansı linzadan istifadə ediləcəyini də bilirsə, deməli, kino yaradıcı olduğu qədər də mühəndis fəaliyyətidir. Eləcə də musiqi... Bəstəkarlar İttifaqına üzv olmaq üçün bəstəkarlıq təhsili almaq şərtdir. Bəstəkarlıq fakültəsində adama bəstəkar olmağı öyrətmirlər, sadəcə, işin texnikasını öyrədirlər. Biz isə ədəbiyyatın texniki tərəflərini bir kənara atırıq. Ona ilham kimi baxırıq, ruh kimi baxırıq... Bütün bunlar çox gözə və çox özəl şeylərdir. Lakin ədəbiyyatı yaradan texnikadır. O texnikanın içində ilhamın da, intuisiyanın da öz tonallığı var. Biz isə istedadına ümid bağlayan ümidsiz şairlər ölkəsində yaşayırıq.

**- Amma bu müsahibə də sanki ümidsizdir...**

- Qətiyyən... Bəlkə də, məni bədbinlikdə ittiham edəcəklər. Ancaq biz xoşbəxtlik satan şəxsi inkişaf fırıldaqçıları deyilik. Şəhriyar demiş, itkinlik var, ayrılıq var, ölüm var bu dünyada... Ədəbiyyat daima var olacaq. Bunsuz mümkünsüzdür. Ancaq hansı formada, hansı məzmunda? Biz indi onu tapmalıyıq...

**- Sonda nə demək istərdin?**

- İncəsənət gerçəklikdən qaçışdır. İnsanlar daim gerçəklikdən qaçmaq istəyiblər. Başqa bir dünyanın, lap elə axirət dünyasının, Cənnətin həsrətində olublar. İncəsənət də bu cür xilasdır, gerçəklikdən xilas... Orda bir az nəfəs almaq cəhdi... Gerçəyi unutmaq cəhdi... Ancaq indi sosial media var. Virtual dünya var. İnsanlar ədəbiyyata yox, ora qaçırlar. Bu, məncə, dövrümüzün ən böyük dəhşətidir. Çünki orda ruh ucalmır. Çünki orda orta statistik zəka hökm sürür. Bizim ən böyük mübarizəmiz isə bu olmalıdır. Dostoyevski deyirdi ki, ruhunuzu ucaldın! Bu sözə başqa nə əlavə etmək olar ki?

**Söhbətləşdi:**
**Rəvan Cavid**